Dekabr 2016

# PwC Azerbaijan Times

## 36 saylı Buraxılış

### *Buraxılışın əsas xəbərləri:*

- **Nağdsız hesablaşmalar haqqında qanun layihəsi**
- **Milli iqtisadiyyatın əsas sektorlarının inkişafı barədə Prezident Fərmanı aşağıdakı strateji yol xəritələrini təsdiq etmişdir**




Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2016 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

### *Nağdsız hesablaşmalar haqqında qanun layihəsi*

ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi hər təqvim ilinin istənilən ayında (aylarında) 200,000 (iki yüz min) manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği 30,000 (otuz) min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği 15 (on beş) min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.

Qanun layihəsi ƏDV və aylıq dövriyyəsi 200,000 (iki yüz) min manatı ötən vergi ödəyiciləri üçün 1 yanvar 2017-ci il tarixindən, digər vergi ödəyiciləri üçün isə 1 aprel 2017-ci il tarixindən qüvvəyə minir.

### *Milli iqtisadiyyatın əsas sektorlarının inkişafı barədə Prezident Fərmanı aşağıdakı strateji yol xəritələrini təsdiq etmişdir*

35 saylı buraxılışımızda qeyd etdiyimiz kimi Azərbaycan Respublikasında qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətidir. Bunu nəzərə alaraq, Prezident tərəfindən aşağıdakı strateji yol xəritələri təsdiqlənmişdir:

*1) Azərbaycan ağır sənaye və maşınqayırma inkişafı üçün strateji yol xəritəsi.*

Strateji yol xəritəsinin əsas məqsədi ağır sənaye və maşınqayırma sahəsindən gələn gəliri artırmaqla iqtisadi diversifikasiyaya nail olmaqdır.

Bu məqsədlərə nail olmaq üçün 2016-2020 illər dövrü üçün üç hədəf müəyyən edilmişdir:

- Mövcud aktivlərin optimallaşdırılması,

- Rəqabət sektorunun yaradılması,

- Maliyyə dəstəyi və beynəlxalq əməkdaşlığın təmin edilməsi.

2020-ci il üçün bu məqsədlərin nail olunması ÜDM-un səviyyəsini 1 milliard 650 million manat məbləğində artıracaq və 7,700 yeni iş yerinin açılmasına səbəb olacaqdır. Bu məqsədlərə nail olmaq üçün 2,9 milliard manat məbləğində sərmayə tələb olunur.

# PwC Azerbaijan Times

## 36 saylı Buraxılış

Strateji yol xəritəsi ağır sənaye və mühəndislik sektorunda aşağıdakı prioritetləri müəyyən edir:

- Dağ-mədən, (neft və qaz istisna olmaqla);

- Metallurgiya;

- Bəzi tikinti materiallarının istehsalı;

- Neft sektorunda və kənd təsərrüfatında maşınqayırma sənayesi;

- Elektrik avadanlıqlarının istehsalatı;

- Maşınqayırma sektorunda xidmətlərin inkişafı.

*2) İxtisaslaşmış turizm sənayesinin inkişafı üçün strateji yol xəritəsi.*

Strateji yol xəritəsi dörd prioritet sahələri müəyyən edilib:

1) Bakının turizm potensialından tam istifadə.

2) Ölkədə turizmin inkişafı üçün daha əlverişli mühitin formalaşdırılması.

3) Regional turizm təşəbbüslərinin həyata keçirilməsi vasitəsilə Azərbaycanda turizmin inkişafı.

4) Turizm sahəsində Sənaye standartları və sertifikatlaşdırma sistemlərinin təkmilləşdirilməsi, turistlərin məmnuniyyət səviyyəsinin artırılması və turizm sahəsində təhsil proqramlarına investisiyalar.

Fərman ilə müəyyənləşdirilmiş məqsədlərin tətbiqinin nəticəsi olaraq, 2020-ci il üçün Azərbaycanda ÜDM-in dəyəri bilavasitə 303 (üç yüz üç) million manat məbləğində, dolayı yolla isə 172 (yüz yetmiş iki) manat məbləğində artacaqdır.

*3) Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsi.*

- Yol xəritəsinin əsas məqsədləri aşağıdakılardır:
- Maliyyə resurslarına çıxışın sadələşdirilməsi;
- Ərzaq təhlükəsizliyi davamlılığının gücləndirilməsi;
- Peşəkar təhsilin keyfiyyətinin yaxşılaşdırılması;
- Konsaltinq və informasiya xidmətlərinin inkişafı;
- İstehsalçılar üçün bazarlara çıxışın sadələşdirilməsi;
- Bazar infrastrukturunun inkişaf etdirilməsi;

Kənd təsərrüfatı sahəsində biznes mühitinin yaxşılaşdırılması.

Bundan başqa, Strateji Yol xəritəsi kənd təsərrüfatı məhsullarının istehsalının inkişafı və emalı üçün Dövlət-Özəl İnvestisiya Fondunun yaradılmasını nəzərdə tutur. İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi Dövlət-Özəl İnvestisiya Fondunun yaradılması ilə bağlı təkliflər hazırlayacaqlar.

Fond investisiya gəlirini hesablayacaq, investisiyaları kateqoriyalar üzrə böləcək (məsələn infrastruktur, istehsal və emal) layihələrin seçimi üzrə meyar formalaşdıracaq və monitorinq sisteminin yaradılması üzrə təkliflər hazırlayacaq.